UOT 94 (479.24)




# XVIII ƏSR RUS MƏNBƏLƏRİ AZƏRBAYCAN MEMARLIĞI HAQQINDA

*Zəhra İslamova*
*Bakı Dövlət Universitetinin doktorantı*
*e-mail: ayxan.islamli@gmail.com*

**Açar sözlər:** *XVIII əsr, Azərbaycan, Bakı, Dərbənd, Şamaxı*




XVIII əsrin ortalarında xanlıqların yaranması Şamaxı, Şəki, Şuşa, Quba, Bakı, Naxçıvan və s. kimi ayrı-ayrı siyasi, iqtisadi və mədəni mərkəzlərin formalaşmasına gətirib çıxardı. Azərbaycan şəhərləri siyasi, iqtisadi, sənətkarlıq və ticarət mərkəzləri olmaqla yanaşı, həm də ölkənin mühüm mədəniyyət ocaqları idi. Xanların hər biri xanlığın mərkəz şəhərinin möhtəşəmliyi üçün çalışır, buna görə xan sarayları, divanxana və digər ictimai binalar inşa etdirməklə öz üstünlüklərini nümayiş etdirmək istəyirdilər. Ümumiyyətlə, Azərbaycanda orta əsrlərdən şəhərsalmada məscid, türbə, hamam, karvansara tikintisi inkişaf etmişdi.

Mədəniyyət, xüsusilə memarlıq ənənələri haqqında məlumatları XVIII əsrdə Azərbaycanda olan diplomatik missiya nümayəndələrinin, səyyahların və tacirlərin qeydlərində izləmək mümkündür. Bu qeydlər əsasında Azərbaycan tarixinin və memarlığının öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Xarici dövlətlərin nümayəndələri Azərbaycanın ayrı-ayrı bölgələrindən bəhs edərkən, onlar üçün böyük maraq kəsb edən memarlıq nümunələrini də təsvir edir və öz heyranlıqlarını gizlətmirdilər. Dağılmış abidələrimiz isə onlarda təəssüf hissi doğururdu.

Orta əsrlərdə Şərqin digər şəhərlərinə xas olan xüsusiyyətlər Azərbaycan şəhərləri üçün də səciyyəvi idi. Dövrün mürəkkəb siyasi vəziyyətini nəzərə alan xanlar öz ərazilərinin müdafiəsinə daha çox diqqət yetirirdilər. Əksər hallarda müdafiə xətti ikiqat divar və xəndəkdən ibarət olurdu. Bu zaman ərazinin təbii-coğrafi mövqeyinin bütün cəhətləri nəzərə alınırdı. 1796-cı ildə rus qoşunlarının Azərbaycana yürüşünün iştirakçısı olmuş V.Bakunina yazırdı: "Dərbənd qala divarları İrana (Azərbaycana – Z.İ.) giriş olaraq təbiətin özü tərəfindən möhkəmlənmişdir və onu "Dəmirqapı" adlandırırlar. Qala dənizin sahilində çətin keçidləri olan sıldırım qaya üzərində tikilmişdir. Şəhərin bir hissəsi dağda, digər hissəsi isə qumlu sahildə yerləşir. Şəhər hər iki tərəfdən bir ucu dağlara söykənən, digər ucu dənizədək uzanan divarlarla əhatə olunmuşdur. Həmin qala divarlarının bərabərində ikinci bir qala divarı da ucaldılmışdır ki, həmin qala divarları şəhəri "Dübari" adlanan aşağı - məskunsuz hissədən ayırır. Üçbucaq şəklində tikilmiş Narınqala "Dərbənd" adlandırılan orta hissədən doqquz müdafiə bürcü olan divarla ayrılmışdı (12, c.435). F.Simonoviç "Dənizə doğru olan "Dübari" adlı boş ərazidə I Proyt tərəfindən tikilmiş Urus-kala (rus qalası-Z.İ.) yerləşir" - deyə qeyd edir (9, c.144). Mənbələrin məlumatlarına əsasən, coğrafi şərait

nəzərə alınmaqla müdafiə divarlarının tikilməsinin bariz nümunəsi ilə tanış oluruq. Şəhərin ikiqat müdafiə divarı ilə əhatə olunmasını İ.Gerber də təsdiq edir. Müəllif yazır: "Dağlar və dəniz arasında tikilən bu şəhəri hansı yolla isə yandan keçmək və ya ötmək mümkün deyil; burada yol yalnız şəhərdən keçir" (9, c.85). Dağların keçilməzliyini nəzərə alaraq şəhər elə yerdə salınmışdı ki, o istənilən hücum zamanı özünü müdafiə edə bilərdi.

Dərbəndin Xəzər sahillərindəki sıldırım qayaları şəhəri dəniz tərəfdən müdafiə edirdi. Dərbəndin liman hissəsinə keçid zəncirlənir və dənizdən giriş bağlanırdı. Qərbdən və şərqdən təbii şəkildə qorunan şəhərin digər iki hissəsinə sədlər çəkilmişdi. P.Q.Butkov Dərbənd divar sədlərinin təsvirini vermişdir: "Qala divarları qəsr və qüllələri ilə birgə yonulmuş kəsmə daşlardan 5-8 sajen hündürlüyündə, 1-2 sajen qalınlığında tikilmişdir. Qalanın təhlükəsizliyini təmin etmək üçün divarda çıxıntılar vardı. Dübari tərəfdən isə su dolu xəndəklər qazılmışdı (9, c.202). Qala divarlarının hündürlüyü və qalınlığı şəhərin keçilməzliyini təmin edirdi. V.Bakunina rusların Dərbəndə hücumu haqqında "Dübarinin divarları qalın və hündürdür, rus hərbi hissələri bu divarı necə aşmaq niyyətindədirlər?" yazırdı (12, c.439). Şəhərə ancaq darvazalar vasitəsilə giriş vardı, düşmən hücumu zamanı şəhər darvazaları bağlanır, açarlar isə şəhər naibinə verilirdi. Açarların təhvil verilməsi şəhərin təslim olması anlamına gəlirdi. A.Araratskinin qeydlərində yazır ki, Dərbənd şəhəri təslim edildikdən sonra danışıqlar zamanı ilk şərt "qalanın açarlarının təslim edilməsi, ordunun qaladan çıxarılması və xanın rus düşərgəsinə gəlişi" olmuşdu (8, c.126).

Rəsm. I Pyotr Dərbəndin "Qırxlar qapısı" önündə



Dərbənd şəhərinin quruluşu haqqında digər rus hərbçiləri İ.Gerberin və F.Soymonovun qeydlərində də oxşar məlumatlar vardır: "Dərbənd yuxarı, iki hissədən ibarət olan orta və dənizkənarı olmaqla 4 hissəyə bölünüb ki, bunlar da bir-birindən divarla ayrılır. Yuxarı hissədə sultanın evi, həm də rus qarnizonu yerləşir, digər iki hissədə naib və yerli əhali yaşayırdı. Burada çoxlu məscid və ticarət üçün karvansaralar vardı. Dənizkənarı hissədə, vaxtilə yunanlar və digər xristianlar yaşasalar da, sonradan qovulmuşdular, indi orada heç kim yaşamır (2, c.37). XIX əsrin böyük mütəfəkkiri A.A.Bakıxanov da bu məlumatları təsdiqləyir. Tarixçi yazır ki, "Dərbənd qalası ruslar tərəfindən alınarkən Narınqala tutulmuş, buradakı əhali qovulmuş, "padşah özü orada yerləşmişdi, şəhərin digər iki hissəsində naib və digər yüksək rütbəli şəxslərin evləri, karvansaralar və s. yerləşirdi. Dəniz kənarında yerləşən "Dübari" adlı dördüncü hissədə isə əhali məskunlaşmayıb. İmperatorun əmri ilə burada iki kazarma və sursat anbarı tikilmişdir" (4, s.129; 1, s.98). F.Simonoviç "Dərbənd şəhəri oranın xanlarının yerləşdiyi qaladı"- deyə qeyd edir (9, c.144). P.Q.Butkov isə Dərbəndin 3 hissədən ibarət olduğunu yazır: "Birinci yuxarı hissədir ki, "Narınqala" adlanır, ikinci hissədə əhali məskunlaşmışdır və "Dərbənd" adlanır, sonuncu yer heç kim yaşamadığı "Dübari" adlı hissədir ki, əhali burada öz heyvanlarını saxlayır... Narınqalada 2 xan sarayı mövcuddur. Bu sarayların xarici görünüşünün nəzərəçarpan olmasa da, daxili divarlarının döyüş, ov və məhəbbət səhnələri ilə məharətlə və "canlı boyalarla" bəzədilib. Ev elə yerdə yerləşir ki, bütün şəhər və ətraflar tam görünür, sarayın daxilində birsütunlu məscid vardır ki, əhalinin dediyinə görə, o İsgəndər tərəfindən ucaldılıb. "Dərbənd" adlanan hissədə çöl daşlarından tikilmiş ikimərtəbəli 2 xan evi, Əli və Ömər təriqətli 15 məscid, 1 erməni kilsəsi, 6 karvansara, 500 dükan, 1 sikkəxana, 30 ipək parça və 115 kağız emalatxanası, 2096 fars və 93 erməni evi var. Dərbəndin üçüncü boş hissəsində heç kim yaşamır,dəniz sahilində yerləşən yeganə binada 1775-ci ildə general-porutçik Medemin yaşamışdır (9, c.202). Şəhərdə adı çəkilən binaların sayca çoxluğu və müxtəlifliyi onun ərazi baxımından böyüklüyünün göstəricisi hesab edilir.

1796-cı ildə rus qoşunlarının Azərbaycana yürüşünün iştirakçısı olmuş V.Bakunina yazırdı ki, "şəhərin "Narınqala" adlanan ən hündür hissəsində Şeyxəli xanın atası Fətəli xan tərəfindən tikilmiş xan sarayı yerləşir. Özüm orada olmasam da, deyilənlərə görə, ora çox gözəldir, geniş otaq və eyvanlar freskalarla bəzədilmişdir" (12, c.443). "Narınqala" adlı hissədə xana məxsus ikimərtəbəli iki ev, ictimai binalar, məscid, karvansara və zərbxana yerləşirdi. F.Simonoviç "Narınqala" qala adlanmasına baxmayaraq əsl şəhərdi" - deyə qeyd edir (9, c.144). Xan və əyan evlərinin divarlarının müxtəlif mövzulu təsvirlərlə bəzədilməsi Azərbaycandakı xan saraylarının spesifik xüsusiyyətləridir. Eyni tendensiyanı Şəki Xan Sarayında, İrəvan xanlarının sarayında, Bakıxanovların evində, Dərbənd Xan sarayında izləmək mümkündür.

V.Bakunina yazırdı: "Dərbəndin küçələri dar olsa da, buradakı evlər hündürdür. Onların divarları isə qalın və yonulmuş daşlardandır; kiçik pəncərələrinin barmaqlıqları vardır. Baş məscidin qarşısında gözəl, təmiz və geniş dördkünc meydan var. Buradakı evlər düz xətt boyunca tikiliblər. Meydanın bir tərəfindəki küçə nisbətən hündür olduğundan, eyvan təəssüratı bağışlayır, bu küçəyə yonulmuş ikitərəfli pilləkənlə qalxırlar. Pilləkənlərin arasında təmiz və şəffaf bulaq suyu axaraq yonulmuş daş hovuza dolur" (12, c.442). Dərbənd şəhərinin daxili gözəlliyi, meydança, hovuz və digər binaların tikintisində o dövr üçün müasir texnologiyalardan istifadə edilməsi Azərbaycan memarlarının səriştəsinin, yüksək peşəkarlığının göstəricisidir. Şəhərin daxili quruluşu böyük maraq kəsb edir. Meydançanın mərkəzində hovuzun olması, ətraf tikililərin və küçələrin bu meydançaya uyğunlaşdırılması şəhərin memarlıq üslubunun dəqiqliyinə dəlalət edir, şəhər ustalarından böyük məharət və zövq tələb edirdi.


Новѣйшія географическія
и
историческія извѣстія
о
КАВКАЗѢ,
Собранныя и пополненныя
Семеномъ Броневскимъ.
ЧАСТЬ ВТОРАЯ.
МОСКВА.
Въ Типографіи С. Селивановс
1823.


Самуила Георга Гмелина,
Доктора врачебной науки, Императорской Академии Наукъ, Лондонскаго, Гарлемскаго и Вольнаго Экономическаго общества члена
ПУТЕШЕСТВІЕ
ПО РОССІИ
для
изслѣдованія трехъ царствъ естества.
Переведено съ Нѣмецкаго.

Часть первая.
Путешествіе изъ Санктпетербурга до Черкаска, главнаго города Донскихъ козаковъ въ 1768 и 1769 годахъ.

ВЪ САНКТПЕТЕРБУРГѢ
при Императорской Академіи Наукъ
1771 года.

Bakını memarlıq baxımından ən çox tədqiq edilmiş şəhər hesab etmək olar. Bakıda Xan sarayı, məscidlər və Suraxanıda hind Ataşgahı vardır. Bu abidələrin hər biri diqqətəlayiqdir. Bakı şəhərinin 1723-1726-cı illərdə rus qoşunlarının Azərbaycana yürüşü zamanı tərtib olunmuş planları XVIII əsr şəhər tikililərinin aydın mənzərəsini yaradır. O zaman Bakı qalasının 5 darvazası var idi: onlardan üçü dənizə, ikisi "Şah Abbas" (Şamaxı) və Salyan darvazaları isə quruya çıxırdı. Quruya çıxan darvazalar haqqında danışarkən onu qeyd etmək lazımdır ki, şəhərdə Salyan darvazalarından başlayaraq Şamaxı darvazalarına qədər qala divarları ilə uzanan baş küçə vardı. İctimai binalar, ticarət mərkəzləri, məscidlər bu küçədə yerləşirdi. Qala divarlarından kənarda bir sıra binalar (məscidlər, ikimərtəbəli ev, qübbəvari bürc və s.) var idi (3, c.42). V.Zubovun məlumatında qeyd olunur ki, burada "Xan evi və Dərbənddəki evlərə oxşar tikililər vardır, lakin daha yaxşı tikililəbr. Binalardan ən hündürü xüsusi tikinti quruluşuna, möhkəmliyinə və qədimliyinə görə seçilən Qız qalasıdır. Şəhərin üç darvazası var: Salyan, Dərbənd və Sahil qapıları" (11, c.26).

Bakıda İçərişəhər qala divarları daxilində, Şamaxı darvazası yaxınlığında əzəmətli saray kompleksi olmuş və dövrümüzədək gəlib çatmışdır. Bu kompleks sonuncu Bakı xanı Hüseynqulu xanın sarayından, Əbdürrəhim bəy və Mehdiqulu bəyin evindən ibarət olmuşdur. Təsadüfi deyil ki, saray "Xan və iki qaçmış bəyin sarayı" adlandırılır. 1782-ci ildə Bakı limanında olan rus eskadrası tərəfindən tərtib edilən Bakının planında bu saray qaladan kənarda - Şamaxı darvazası yaxınlığında "xanın yay evi" kimi qeyd olunmuşdu. Bu kompleks yeddi qapalı həyətin ətrafında düzülmüş yüzdən çox otaqdan ibarət imiş. Saray bütöv xan ailəsinə aid olub. Akademik S.Q.Qmelin Bakıda Məlik Məhəmməd xanın evini təsvir edərək yazır: "Hal-hazırda təmir olunan, gözəl bağı olan dəniz kənarındakı Xan evi digər tikililərdən kənarda yerləşir. İndi isə xan şimal-qərbdə, şəhərin o biri başında dənizin yanında Şərqi Avropa üslublu yeni Xan evinin əsasını qoyub. Mən burada olarkən xan iki xanımı ilə orada yaşayırdı" (7, c.81). Məlumatdan aydın olur ki, Rusiya tərəfdən daimi təhlükə gözlənilməsinə baxmayaraq, şəhərin abadlaşdırılması və yeni tikililərin inşa edilməsi dayandırılmamışdır. 1772-1783-cü illərdə hakimiyyətdə olan Məhəmməd Məlik xanın dövründə şəhərdə bərpa işləri aparılmışdır. XVIII əsrin əvvəllərində Bakı ətrafında iki qala divarı və xəndəklər vardı.

XVIII əsrin 80-ci illərində ingilis səyyahı C.Forsterin yazdığına görə, Bakının xarici divarı bu dövrdə dağıdılmışdı. "Şərq tərəfdən Bakının ikiqat hasarı var. Lakin xarici divar hazırda dəniz ləpələrinin təsirindən sökülür" (13, c.5). Xəzər dənizinin suyu kifayət qədər duzludur. Bu səbəbdən divar həqiqətən aşılana bilər, lakin sökülməsi inandırıcı deyil. XVIII əsrin 90-cı illərində Bakıda olan M.Biberşteyn yazırdı: "Bakı böyük şəhər deyil... divarla əhatə olunmuş digər şəhərlərdən ikiqat hasarları ilə fərqlənir. İçəri divar xarici divardan hündürdür. Xarici divarın ətrafında quru xəndək var" (5, c.15). F.Soymonov Bakı şəhəri haqqında yazarkən şəhərin ağ daşdan üç sıra divarla əhatə olunduğunu qeyd edir. Çöl divarın hündürlüyü bir, orta divarın hündürlüyü iki, içəri divarın hündürlüyü üç sajen (3 arşın və ya 2,134 m.-ə bərabər uzunluq ölçüsü) idi (2, c.105). F.Soymonovun bu məlumatı V.Zubovun "Bakı ayrı-ayrı yerlərdə qüllələri olan üç sıra daş divarla əhatə olunur ki, Dərbənd qala sədlərindən daha möhkəm və nizamlıdır" qeydi ilə uyğun gəlir (11, c.26).

Bakıda yerləşən daha bir abidə Suraxanıdakı Ataşgahdır. Ümumilikdə, Azərbaycan ərazisində yerləşən dini tikililərin öyrənilməsi bu dövrün tarixinin araşdırılmasında xüsusi əhəmiyyətə malikdir. Mənbələrin məlumatlarına əsasən, tikili XVII əsrdə hind zəvvarları tərəfindən kiçik daxma olaraq yaradılsa da, sonradan genişləndirilmişdir. Lakin S.Bronevskinin buranın Şah Abbas (1587-1629) dövründə daimi yaşayış yeri olması haqqında məlumatı Ataşgahın tarixini daha qədimləşdirir. Artemi Araratski "Avşaran" adlı adanın qarşısında yerləşən "yanar torpaq" barədə məlumat verir. "Qədimdə atəşpərəstlər tərəfindən qala divarlarının arasında otaqların tikildiyini, torpağın üst qatının tez alovlandığını və söndürmək üçün onun üzərinə qum tökməyin kifayət" olduğunu yazır (8, c.149).



Bəhs olunan dövrdə Azərbaycan xanlıqları sırasında xüsusi mövqeyə malik olan Quba xanlığının memarlıq abidələri haqqında çox az və təzadlı məlumatlar vardır. Belə ki, A.P.Volınski səfirliyinin üzvü olan A.İ.Lopuxin geri qayıdarkən yolüstü Qubada olmuşdur. O burada xanlığın düşməndən qorunması üçün "heç bir müdafiə istehkamı olmadığını" qeyd etsə də (9, c.7), ardınca "ləzgi və kuralların qarətindən müdafiə üçün "Üst Çəlis" adlı çiy kərpicdən tikilmiş qala"nı təsvir edir. "Buranın bir ağaclığında "Davut qalası" adlı şəhərin olduğunu, onun ağac halqa və xəndəklə əhatələndiyini" yazır. Və əlavə edir ki, "buranın bir girişi vardır. Gecələr darvaza bərk bağlanır". A.Lopuxin eyni zamanda xan iqamətgahının Xudatda yerləşdiyini və xanlığın ərazisində Qubadan başqa bir şəhər olmadığını qeyd edir (9, c.8). Lakin 1796-cı ildə F.Simonoviç "Fətəli xan tərəfindən xanların oturduğu Quba şəhərinin üç tərəfdən xəndək və divarla möhkəmləndirildiyini, sonuncu tərəfin qayalı saf sulu çayla müdafiə olunduğunu" qeyd edir (9, c.145). Tarixi mənbələr və arxeoloji qazıntılar isə bunun əksini sübut edir. Quba xanlığının banisi Hüseynəli xan Quba şəhərini xanlığın mərkəzinə çevirdi. Onun ətrafına qala divarları çəkdirdi. Xanlığın ərazisində düşməndən qorunmaq üçün möhkəm qalalar olmuşdur; bunlardan biri Bakıdan Dərbəndə gedən böyük yolun kənarında yerləşən, hündür hasarla və xəndəklə əhatə olunan "Şəhərçə" qalası idi. Digər bir qala Beşbarmaq dağında yerləşən Çıraqqala idi. Səyyahların məlumatına əsasən,"Beşbarmaq dağının ətəyində karvansara vardı; onun divarlarında Şərq və Avropa dillərində yazılar və təsvirlər həkk olunmuş, qədim qalanın qalıqları qalmışdır" (6, c.357). Çıraqqala gizli yeraltı kanallarla su ilə təchiz olunurdu, onun 12 qülləsi vardı. Onun şimal tərəfində "Alqun" və "Baru" adlı hündür istehkamlar tikilmişdi. "Çıraqqala" adlı yaşayış məskəni yonulmuş daşdan olan qədim qalası ilə seçilir. Fətəli xan tərəfindən burada yay evi və 500 ailənin yaşaması üçün başqa evlər də tikilib. İndi bu evlər boşdur. Düşmən hücumu zamanı qala, dağlardan gələn borularla su ilə təchiz olunurdu (9, c.146; 6, c.389). Güman ki, bu qala düşmən hücumu zamanı xanın ailəsinin, saray adamlarının, əyanların və ümumiyyətlə əhalinin yerləşdirilməsi üçün nəzərdə tutulmuşdur.





Ataşgah məbədi.
Suraxanı rayonu, Bakı

Tarixən çox məşhur olan Şabran şəhəri dənizdən 12 verst uzaqlıqda yerləşir. Lakin 1796-cı ildə bu şəhərin yalnız yarıdağılmış evləri, qüllə və karvansara qalıqları qalmışdı. Burada məskunlaşmış adamların hərəsi bir yana dağılmışdı (6, c.388). Tarixi ədəbiyyatlarda Şabran haqqında çox az məlumata rast gəlinir. Lakin şəhərdə qüllə, karvansara və evlərin olması buranın ticarət mərkəzi kimi fəaliyyətindən xəbər verir. F.Simonoviç də Şabran qalası haqqında belə məlumat verirdi ki, "Fətəli xan tərəfindən çiy kərpicdən tikilmiş dördkünc boş qaladır" (9, c.146). İ.Gerber yazır ki, Şabranda alçaq dağların arasında, qədim daş qala - İşarət Qala (İşarax kala) vardı (9, c.90). Güman etmək olar ki, qalanın adının mənası "işıq verən" olduğundan, o yol göstərici olmuş, ondan istiqaməti müəyyənləşdirmək üçün istifadə edilmişdir. Və Şabran şəhəri də bu qala ətrafında yaranmışdır.




Azərbaycanın qədim şəhərlərindən biri olan Şamaxıda da diqqətəlayiq tikililər vardır. Məscidlər, minbərlər və karvansaralar bütün orta əsr şəhərləri kimi, Şamaxı üçün də xarakterikdir. C.Bel yazırdı: "Şamaxı şəhərində ustalıqla bəzədilmiş məscid vardı. Günorta vaxtı molla və ya pop minbərdən camaatı ibadətə çağırır; belə ki, məhəmmədilərin zəngləri olmur"(12, c.396). İslam dininin yayılması ilə əlaqədar, VII əsrdən başlayaraq minbər və məscidlərin tikintisi geniş yayılmışdı. Bütün şəhərlərdə, hətta kəndlərdə də məscidlər vardı. Namaz vaxtı məscidin minbərindən azan vasitəsilə əhaliyə elan edilirdi. Bütün şəhərlərdə olduğu kimi, "Şamaxıda da həm kişilər, həm də qadınlar üçün hamamlar" vardır (12, c.396). Hamamların binası çox vaxt dördkünc formalı və çoxlu otaqlardan ibarət olurdu. Su təchizatı borular vasitəsilə həyata keçirilirdi.

Qravyura. Qədim Dərbəndin təsviri olan. Müəllif: Jan Pyer Moyne 1860-cı il.



Gəncə şəhərinin əzəmətli və gözəl bir şəhər olmasını İ.Lerx öz qeydlərində təsdiq edir (10, c.126). Lakin müharibələr bu şəhərin dağılmasına səbəb olmuşdur. Gəncə Cümə məscidindəki kitabələrdən aydın olur ki, bu məscid 1748-ci ildə Qarabağ qoşunlarının hücumu zamanı dağıdılmış, 1796-cı ildə Cavad xan tərəfindən yenidən bərpa edilmişdir. 1796-cı ildə Qarabağ və ləzgi qoşunlarının hücumu zamanı bu məscid yenə dağıdılmış və sonra Cavad xan tərəfindən təmir edilmişdir.

Beləliklə, mənbələrdən məlum olur ki, XVIII əsrdə Azərbaycanda memarlığın inkişafı ləng getsə də, tamamilə dayanmamış, əksinə bəzi xanlıqlarda yüksək inkişaf etmişdir. Bacarıqlı usta və memarlar tərəfindən orijinal abidə və əsərlər yaradılmışdır. Yuxarıda qeyd olunan ayrı-ayrı memarlıq abidələrinin tədqiqi XVIII əsr Azərbaycan memarlıq nümunələrinin gözəlliyini, əzəmətini və özünəməxsusluğunu bir daha göstərir.



**Ədəbiyyat:**


1. Bakıxanov A. Gülüstan-i İrəm. Bakı, Elm,1991, 256 s.
2. QarayevE.T., F.İ.Soymonovun "Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator-Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri" adlı səyahətnaməsiAzərbaycan tarixinin mənbəyi kimi. Bakı, ADPU, 2006, 141 s.
3. Ашурбейли С.Б. История города Баку (период средневековья) Баку: Азернешр, 1992, 407с.
4. Бакиханов А.К. Гюлистани-Ирам(редакция, комментарии, примечания и указатели академика АН АзССР З.М.Буниятова). Баку, Элм, 1991, 304 с.
5. Биберштейн М. Описание провинций, расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. НАИИ НАН Аз., 466, л. 56.
6. Броневский С. Новейшие географические и исторические известия о Кавказе. В 2-х томах. Часть 2. Москва, вь Типографии С.Селивановскаго, 1823. 465 с.
7. Гмелин С.Г. Путешествие по России для исследования всех трех царствь в природе, ч.III. СПб., Иждивением Императорской Академии Наук, 1785, 737 с.
8. Жизнь Артемия Араратского. Издание подготовилК.Н.Григорьян при участии Р.Р.Орбели. 1981, 224 с.
9. История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва, Издательство восточной литературы, 1958, 367 с.
10. Лерх Иоган Якоб. Извлечения из дневника путешествения И.Я.Лерха (путешествие). НАИИ НАНА, инв.487. Сведения о втором путешествие в Персию, современном в 1745-1747 гг. Перевод Абезгуз. НАИИ НАНА, инв.490
11. Мамедова Г.Н. О походе В.Зубова в Азербайджан в 1796 г. Баку, Элм, 2003, 94 с .
12. Путешественники об Азербайджане. Под редакцией Э.М.Шахмалиева. т. I, Составиль З.И.Ямпольский. Баку, Издательство Академии Наук Азербайджанской ССР, 1961, 425 с.
13. Форстер Г. Путешествие из Бенгалии в Великобританию. Перевод с франц. С.Б.Ашурбейли. AMEA TİEA, fond1, siy.1, iş380


*Zahra Islamova*
*PhD candidate*
*Baku State University*

***Russian sources of the 18th century about Architecture of Azerbaijan***

***Key words:*** *18th century, Azerbaijan, Baku, Darband, Shamakha*

***Summary***

The article describes the architecture of old Azerbaijani cities – Darband, Baku, Guba, Shabran, Shamakha and Ganja. The cities of Azerbaijan were not only the center of politics, economics, handcraft and trade, but also the center of culture in the second half of the 18th century. There are many interesting articles about the history and architecture of Azerbaijan in the notes of representatives of diplomatic missions, travelers and traders. The history of Azerbaijan in the 18th century can be studied based on these articles.

*Захра Исламова*
*докторант Бакинского Государственного Университета*

***Русские источники XVIII века об архитектуре Азербайджана***

***Ключевые слова:*** *XVIII век, Азербайджан, Баку, Дербент, Шемаха*

***Резюме***

В представленной статье изучены архитектура древних городов Азербайджана, таких как Дербент, Баку, Губа, Шабран, Шамаха. Эти городы были не только политическими, экономическими, торговыми и ремесленными центрами, но и являлись центрами культуры во второй половине XVIII века. Есть много интересных материалов об азербайджанской истории и архитектуре в примечаниях представителей дипломатических миссий, путешественников и торговцев. И историю Азербайджана XVIII века можно проследить на основе этих материалов.